KEYFİYYƏT©
ASSOSİASİYASI



# ISO 9001:2015. KEYFİYYƏTİ İDARƏETMƏ SİSTEMLƏRİ - TƏLƏBLƏR: "GİRİŞ" TƏLİMİ

MÜASİR BAZAR ŞƏRAİTİNDƏ MÜŞTƏRİLƏRİN TƏLƏB VƏ GÖZLƏNTİLƏRİNƏ CAVAB VERƏN KEYFİYYƏTLİ MƏHSULLARIN İSTEHSALI VƏ XİDMƏTLƏRİN GÖSTƏRİLMƏSİ BEYNƏLXALQ STANDARTLARA ƏSASLANAN İDARƏETMƏ SİSTEMLƏRİNİN QURULMASI VƏ EFFEKTİV FƏALİYYƏTİNİN TƏMİN EDİLMƏSİNDƏN ÇOX ASILIDIR. BU BEYNƏLXALQ STANDARTLARDAN BİRİ DƏ ISO 9001:2015 STANDARTIDIR.

Daim təkmilləşən ISO 9001 seriyalı standartın son versiyası olan bu standart müasir tələblərə cavab verən dəyişiklikləri özünə daxil etmişdir. Bu təlimə qatılmaqla siz standartın tarixi, yeni versiyada istifadə olunan əsas termin və anlayışlar, tələblər, ali səviyyəli struktur habelə tələblər haqqında geniş informasiya əldə edəcəksiniz. Bu biliklər sizə keyfiyyəti idarəetmə üzrə biliklərinizi daha inkişaf etdirməyə və işlədiyiniz müəssisənin idarəetmə sisteminin effektivliyini artırılmasına xidmət edəcək şəkildə tətbiq etməyə yardım edəcəkdir.

## TƏLIMIN MƏQSƏDİ

İştirakçıları ISO 9001 beynəlxalq standartının yeni 2015-ci il versiyası haqqında məlumatlandırmaq və onun maddələrinin düzgün başa düşülməsi üçün şərh vermək.

## TƏLİM İŞTİRAKÇILARI

- KİS tətbiq olunan şirkətin rəhbər işçiləri və mütəxəssisləri;
- Keyfiyyəti idarəetmə ilə maraqlanan şəxslər: tələbələr, magistrlar, aspirantlar;
- Bu sahədə işləməyə başlayanlar.

## TƏLİMİN FAYDALARI

- ISO 9001:2015 standartı haqqında ümumi məlumat;
- ISO 9001:2008 və ISO 9001:2015 standartlarının müqayisəsi əsasında dəyişiliklərin şərhi;
- Keyfiyyəti idarəetmə sistemində risk yönümlü yanaşma haqqında məlumat və praktiki tövsiyələr;
- ISO 9001:2015 standartında sənədləşdirmə ilə bağlı tələblər haqqında məlumat;
- ISO 9001:2015 sertifikatının alınması üçün görülməsi lazım olan işlər haqqında məlumat.

## TƏLİMİN MÜDDƏTİ

Təlimin müddəti 14 saat olmaqla canlı və ya onlayn formada keçirilir:

2 gün (10:00-17:00)
və ya
7 gün (19:00-21:00)

## TƏLİMƏ DAXİLDİR

- Təqdimat kitabçası;
- ISO 9001:2015 Beynəlxalq Standart (Azərbaycanca);
- Nahar;
- Şirniyyat və çay;
- Sertifikat (İştirakçı və ya müvəffəqiyyət).

## TƏDRİS ÜSULLARI

Təlim interaktiv formada keçiriləcək. İştirakçıların keçirilən mövzuları mənimsəmə səviyyəsini müəyyən etmək üçün müxtəlif tapşırıqlar, aralarında komanda ruhunu formalaşdırmaq məqsədilə qrup çalışmaları veriləcəkdir.

## TƏLİMİN PROQRAMI

**Yüklə və çap et!**

## ÖDƏNİŞ QAYDALARI

Təlimə görə ödəniş qeydiyyat zamanı həyata keçirilir. İştirakçı ödəniş etmədiyi müddətcə təlim üçün qeydiyyatdan keçmiş hesab edilmir. Ödəniş istərsə nağd, istərsə də köçürmə yolu aparıla bilər.

## İMTİNA QAYDALARI

Təlimə qatılmaq istəyən şəxs hər hansı bir səbəbdən dolayı təlim xidmətindən imtina edə bilər. Ancaq o, Assosiasiyanı bu qərarı haqqında təlimə ən azı 7 gün qalmış xəbərdar etməlidir. Bunun müqabilində ona həyata keçirdiyi ödəniş tam həcmdə geri qaytarılır. Qeyd edilən müddətdən gec təlimdən imtina edən şəxslərə etdikləri ödəniş fors-major hadisələr istisna olmaqla, geri qatarılmayacaqdır. Bunun əvəzində iştirakçı digər tarixlərdə təşkil olunacaq eyni adlı təlimin iştirak edə biləcəkdir.

## GÜZƏŞT İMKANLARI

- Assosiasiyanın üzvlərinə (üzvlük növünə uyğun olaraq təlimin dəyərinin 15, 10 və 5%-I həcmində);
- Ödəniş haqqını təlimin başlayacağı gündən 30 gün əvvəl həyata keçirən şəxslərə (təlimin dəyərinin 5 %-I həcmində);
- İki və daha artıq şəxslə təlimə qatılanlara (təlimin dəyərinin 5%-i həcmində);
- Tələbə və magistrlara (təlimin dəyərinin 5 %-I həcmində).

## TƏLİMİN SONUNDA VERİLƏCƏK SƏNƏDLƏR

Təlimin sonunda keçirilən mövzular üzrə imtahan təşkil ediləcəkdir. İmtahandan uğurla keçən şəxslərə təlimi müvəffəqiyyətlə bitirmələri haqqında sertifikat təqdim ediləcəkdir. Təşkil olunmuş imtahandan uğurla keçə bilməyənlərə isə "İştirakçı sertifikatı" veriləcəkdir.

## ƏLAQƏ ÜSULLARI

Siz bizimlə aşağıda əlaqə üsullarının köməyilə əlaqə saxlayıb təlim üçün qeydiyyatdan keçə bilərsiniz:

+994 12 480 28 47   +994 55 220 94 09   training@aqa.az

www.linkedin.com/company/azerbaycan-keyfiyyet-assosiasiyasi

www.facebook.com/KeyfiyyetAssosiasiyasi